2021.- 11 fevral.- S.8.

iki sahil

# Şuşa heç bir şəhərə bənzəməyən cənnətməkan olacaq

Tarixi şəhərimizin azad edildiyi gündən abadlaşdırılaraq müasir görkəmə salınması Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Yanvar ayının əvvəllərində dövlət başçımızın Şuşaya səfəri də bu məqsədə xidmət edirdi. Dövlətimizin başçısı bu gözəl şəhərə səfərində bildirib ki, Şuşa qısa müddətdə yenidən qurulacaq, dini və tarixi abidələr bərpa ediləcək, yeni müəssisələr inşa olunacaqdır.

Qardaş Türkiyənin Milliyətçi Hərəkat Partiyasının sədri Dövlət Baxçalının Şuşada yeni tipli çoxmərtəbəli orta məktəb binasını tikmək təklifi həm Azərbaycan Prezidenti İlham Əliyev, həm də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən razılıqla qarşılanıb. Dövlət Baxçalı bildirib ki, biz orta məktəb binasını azərbaycanlı qardaşlarımıza hədiyyə edəcəyik. Başqa real təkliflər də var.

Azərbaycan Memarlar İttifaqının sədri, Əməkdar memar Elbay Qasımzadə mətbuata müsahibəsində deyib ki, bərpa işlərinin xarici mütəxəssislərlə birgə aparılması daha məqsədəuyğundur: "Bizim kifayət qədər təcrübəli, peşəkar alimlərimiz, tədqiqatçılarımız var. Ancaq etiraf etmək lazımdır ki, xaricdə hələlik bizdə olmayan yeni texnologiyalar var. Onların köməyi ilə dağıdılmış ərazilərdə arxeoloji tədqiqatlar aparılmalıdır. Bundan əlavə orada olan tarixi abidələrin də bərpası işləri görülməlidir. Üzeyir Hacıbəylinin, Bülbülün, Xurşidbanu Natəvanın igamətgahı tikilib bərpa olunmalıdır və onlara yenidən həyat verilməlidir".



Elbay Qasımzadə qeyd edib ki, sakinlər üçün yeni yaşayış evləri tikilməlidir və həmin evlər tarixi 17 məhəllədə salınmalıdır: "Çünki şəhərin əsasını 17 məhəllə təşkil edib. Hər məhəllənin öz bazarı, məscidi və öz bulağı olub. Bizim memarlıq irsi əsas götürülərək yeni müasir və fərdi evlər tikmək lazımdır. Ümumiyyətlə, Şuşaya yanaşma başqa cür olmalıdır".

Baş memar əlavə edib ki, sovet dövründən qalan beşmərtəbəli binalar sökülməlidir: "Şuşada olan və sovet vaxtından qalan yöndəmsiz beşmərtəbəli binalar tamamilə sökülməlidir. Əvəzində Şuşaya 30 ildir həsrət qalan vətəndaşlarımız üçün azmərtəbəli yeni yaşayış binaları tikilməlidir. Cənab Prezident də öz çıxışında bunu bildirmişdi və əminəm ki, onun da tələbi odur ki, Şuşa gözəl və heç bir şəhərə bənzəməyən bir məkana çevirilsin".

Yuxarıda bildirildiyi kimi, yarandığı illərdə Şuşada 17 məhəllə vardı: Seyidli, Culfalar, Quyuluq, Çuxur məhəllə, Dörd çinar, Dördlər qurdu, Hacı Yusifli, Çöl qala, Qurdlar, Saatlı, Köçərli, Mamayı, Xoca Mərcanlı, Dəmirçilər, Hamamqabağı, Merdinli və Təzə məhəllə.

Məhəllələr əvvəlki kimi saxlansa da hər məhəllədə tikinti, təmir və yenidənqurma və bərpa işləri aparılacaqdır. Bütün bunlarla bərabər, unikal təbiətinə, gözəl təbii şəraitinə görə Şuşa ölkəmizin turizm mərkəzlərindən birinə çevriləcək. Burada sanatoriya və istirahət mərkəzləri, kotteclər, otellər və mehmanxanalar tikiləcəkdir. Tarixi Topxana meşəsində, Cıdır düzündə, Turşsuda və İsa bulağında abadlıq işləri aparılacaq. Bura həm soydaşlarımızın və həmvətənlərimizin, həm də xarici turistlərin sevimli istirahət yeri olacaqdır.

**Vəli İlyasov,**
***"İki sahil"***